# ƏLİYEV YAVƏR YAQUB OĞLU



Yavər Əliyev 27 iyun 1956-cı ildə Bakı şəhərində neftçi ailəsində anadan olmuşdur. Pirallahı adasında 235 saylı orta məktəbi bitirdikdən sonra Kremençuq Aviasiya Məktəbinə daxil olur. Təhsilini başa vurduqdan sonra Yavər Zabrat hava limanında işə düzəlir. İdarənin rəhbərliyi onu əvvəl Mİ-4, Mİ-2 vertolyotlarına pilot, sonra Mİ-8 vertolyotuna ikinci pilot və daha sonra komandir təyin edir. Ermənistanın Azərbaycana qarşı apardığı müharibədə Yavər və onun dəstəsi əhalini dağ rayonlarından çıxarır, Qarabağın ayrı-ayrı bölgələri ilə hava körpüsü yaradırdılar. Yavər Əliyev 1992-ci il yanvarın 22-də Mİ-8 vertolyotunun düşmən tərəfindən vurulması nəticəsində həlak olmuş Viktor Seryokin, Ərəstun Mahmudov, Səfa Axundovun cəsədlərini Şuşaya gələrək, düşmən atəşi altında götürə bilmişdi. O, Azərbaycanın Hərbi Hava Qüvvələrinin yaranmasında da böyük işlər görmüşdür. 1992-ci il fevralın 14-də MDB hərbi hissələrindən Azərbaycana bir neçə Mİ-24 hərbi vertolyotunun göndərilməsində onun böyük xidməti olmuşdur. Yavər Əliyev bir neçə dəfə Qarabağa Mİ-24 vertolyotunda uçuşlar etmişdi. Aşağı yüksəklikdə uçaraq düşmən mövqelərinə ağır zərbələr endirmişdi. 1992-ci il fevralın 29-da növbəti uçuşu zamanı düşmən tərəfindən vurulub, qəhrəmancasına həlak olub. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki övladı atasının peşə yolunu davam etdirir. Azərbaycan Respublikası prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı fərmanı ilə kapitan Əliyev Yavər Yaqub oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Oxuduğu Bakı şəhəri 235 saylı tam orta məktəb 1994-cü ildən onun adını daşıyır.